# 525-ci qəzet

15 avqust 2012-ci il, çərşənbə, №146 (3702). Qiymәti 20 qәpik

www.525.az


## Səfər Əbiyev: “Ermənistanla müharibə yaxınlaşır”

### “VASİTƏÇİ ROLUNU OYNAYAN ATƏT-İN MİNSK QRUPUNUN FƏALİYYƏTİ İNDİYƏDƏK HEÇ BİR NƏTİCƏ VERMƏYİB”



Müdafiə naziri, general-polkovnik Səfər Əbiyev ABŞ-ın Oklahoma Ştatı Milli Qvardiyasının komandanı general-mayor Mayls Dirinqi qəbul edib. Müdafiə Nazirliyinin mətbuat xidmətindən APA-ya verilən məlumata görə, görüşdə Azərbaycanla ABŞ-ın strateji tərəfdaş ölkələr olduğunu diqqətə çatdıran müdafiə naziri Silahlı Qüvvələrimizlə Oklahoma Ştatı Milli Qvardiyası arasında uzun müddət davam edən səmərəli hərbi əməkdaşlığı təqdirəlayiq nümunə kimi diqqətə çatdırıb. Regiondakı mövcud hərbi-siyasi vəziyyətlə qonağı tanış edən S.Əbiyev vurğulayıb ki, Ermənistan təcavüzkar siyasətini davam etdirməkdədir: “20 ilə yaxın işğal altında qalan Azərbaycan torpaqlarını dinc şəkildə geri qaytarmaq istəməyən bu işğalçı ölkə yeni müharibəni günbəgün yaxınlaşdırır”.

Müdafiə naziri bildirib ki, vasitəçi rolunu oynayan ATƏT-in Minsk qrupunun fəaliyyəti də indiyədək konkret heç bir nəticə verməyib. Nazirin sözlərinə görə, belə vəziyyətdə Azərbaycanın öz ordusunu gücləndirərək işğal altında olan torpaqlarını azad etməkdən başqa yolu qalmır.

## Ukrayna səfirliyi Ermənistana gizli silah satışı haqda bəyanat yaydı

Ukraynanın Azərbaycandakı səfirliyi Ermənistana gizli silah satışı barədə məlumatı təkzib edib. “2012-ci il 8 avqust tarixində ölkə saytlarından birində yerləşdirilən Ukrayna Müdafiə Nazirliyinin dövlət başçısına ünvanlanan məktubunun surəti fitnəkar saxtakarlıqdır. Səfirliyin qiymətləndirməsinə görə, göstərilən bu fitnəkarlığın hədəfi strateji xarakteri Ukraynanın xarici siyasəti üçün dəyişməz və prioritet olan ənənəvi dost Azərbaycanla münasibətlərə zərbə vurmaqdır”, — səfirliyin məlumatında belə deyilir.

Lakin səfirliyin bu məktubu “fitnəkar saxtakarlıq” hesab etməsinə baxmayaraq, məlumatın KİV-də yerləşdirilməsindən dərhal sonra təkzib edilməməsi məsələsi açıq qalır. Bu faktın bilavasitə aid olduğu idarənin, o cümlədən Ukrayna Müdafiə Nazirliyinin bu informasiyanı rəsmən təkzib etməsi daha çox məntiqli olardı.

Qanunsuz silah satışı haqqında məktubun məzmunu barədə xəbər Ermənistanın Ukraynadan silah almasının yalan məlumat olduğunu yazan erməni KİV-ində fəal şəkildə şişirdilir. Bununla yanaşı, bu kütləvi informasiya vasitələri və onların şərhçiləri qəsdən və ya özləri də istəmədən məktubda göstərilən faktı görmək istəmirlər. Fakt isə o barədədir ki, satılan silahların çatdırılması Ukrayna vasitəsilə deyil, saxta firmalar vasitəsilə həyata keçirilməlidir.

Dünən Ukrayna Müdafiə Nazirliyinin Baş Kəşfiyyat İdarəsinin rəisi general-mayor Sergey Qmızın Ukrayna Prezidenti Viktor Yanukoviçə “Ukrspeseksport” və “Di Ci Arms Korporeyşn” QSC (Ermənistan Müdafiə Nazirliyinin vasitəçisi) arasında müqavilə çərçivəsində Ermənistana silah satışı ilə bağlı məktubunun təfərrüfatları məlum olub.

“Trend”in məlumatına görə, məktubda satışın həyata keçirilməsi üçün Aİ və MDB-də qeydiyyata alınmış saxta firmalardan istifadə olunması



МІНІСТЕРСТВО ОБОРОНИ УКРАЇНИ
ГОЛОВНЕ УПРАВЛІННЯ РОЗВІДКИ

Прим. № 1
Особисто

Президентові України-
Верховному Головнокомандувачу
Збройних Сил України
ЯНУКОВИЧУ В. Ф.

Відносно постачань озброєнь

Вельмишановний Віктор Федорович!

Згідно отриманої Головним управлінням розвідки Міністерства оборони України інформації, 17.09.2011 року ДП «Укрспецекспорт» підписали договір з компанією ЗАТ «Ди Джи Армс Копрорейшн» (ліцензований посередник Міністерства оборони Вірменії) на постачання 12 одиниць ракетних систем залпового вогню (РСЗВ) «Смерч» і комплектуючих до них, а також 50 комплектів ПЗРК «Ігла». Відповідно до умов угоди, вірменська сторона 19.09.2011года здійснила передоплату у розмірі 50% від вартості контракту.

Проте, аналіз закритих і відкритих джерел інформації свідчить про можливу обізнаність Баку про факт і характер угоди з Єреваном.

Зважаючи на важливість переговорного процесу між українською і азербайджанською сторонами у сфері військово-технічної співпраці і енергетичних проектах, вважаємо доцільним в цілях попередження розбіжностей з Баку, рекомендувати керівництву ДП «Укрспецекспорт» публічно відмовлятися від факту здійснення угоди з вірменською стороною. Через наявні оперативні можливості ГУР негласно довести до голови правління «Ди Джи Армс Копрорейшн» Д. Галстяна інформацію про необхідність імітації його звернення в міжнародний арбітраж, поширення серед свого оточення різко негативного відношення до керівництва «Укрспецекспорту» і української сторони як ненадійного постачальника.

У свою чергу, постачання комплектів (РСЗВ) «Смерч» здійснити з дотриманням вимог безпеки і конспірації з території Молдавії під оперативним управлінням ГУР з використанням підставних фірм, зареєстрованих на території країн ЄС або СНД. Маркіровку заводу-виготівника на виробах замінити, у разі розкриття фактів недостовірності в паспортах кінцевого споживача і документах на партію - легендировать «джерело» походження ПЗРК «Ігла» - складами в Лівії, розграбованими бойовиками визвольного руху.

Докладається на Ваше рішення.

З повагою,

Начальник Головного управління розвідки
Міністерства оборони України
генерал-майор С. О. Гмиза

təklif edilir. Məktubda Ukraynadan Ermənistana “Smerç” yaylım atəşi sisteminin və 12 ədəd raketinin, həmçinin 50 ədəd “İqla” daşınan zenit raket kompleksinin satışının qanunsuz sxemi göstərilir.

Məktubda qeyd edildiyi kimi, Ukrayna Müdafiə Nazirliyinin Baş Kəşfiyyat İdarəsinin “Ukrspeseksport” və “Di Ci Arms Korporeyşn” QSC (Ermənistan Müdafiə Nazirliyinin vasitəçisi) arasında müqavilədən bu silahların alınması barədə məlumat əldə etməsi, habelə Ermənistanın artıq müqavilənin dəyərinin 50 faizini ödəməsi qeyd edilir.

*Ardı 3-cü səh.*

## BBC-nin iddiaları necə puç oldu?



Londonda Yay Olimpiya Oyunlarında Azərbaycan idmançılarının göstərdiyi nəticələr ölkə idmanının tarixinə yeni rekordlarla düşdü. İki qızıl, iki gümüş və altı bürünc medal qazanan Azərbaycan komanda hesabında 204 ölkə arasında 30-cu, Avropa dövlətləri arasında isə 14-cü yeri tutdu. Bu, 1996-cı il (1992-ci il olimpiadasında Azərbaycan MDB yığmasının tərkibində iştirak edib) Yay Olimpiya Oyunlarına müstəqil ölkə kimi qatılan, yəni cəmi dördüncü dəfədir bu turnirdə iştirak edən Azərbaycan üçün böyük uğur sayılmalıdır.

**AZƏRBAYCAN BRİTANİYA, RUSİYA VƏ KOREYANI GERİDƏ QOYDU**

Bu yerdə diqqətinizi daha bir fakta cəlb etmək istərdik. Məlumdur ki, Azərbaycan tarixində ilk dəfə London olimpiadasında daha çox idmançıyla — 53 nəfərlə qatılmışdı. 53 idmançımızdan isə, yuxarıda qeyd etdiyimiz kimi, 10 nəfəri medal qazanıb ki, bu da ümumi nəticədə 18,9 faiz deməkdir. Əgər idmançılarımızı sayı daha çox olsaydı, təbii ki, medalların sayı bundan artıq da ola bilərdi. Qeyd edək ki, faiz göstəricisinə görə, Azərbaycan “London-2012”ni ilk beşlikdə başa vuran və bizdən xeyli sayda artıq atletlə yarışlara qatılan üç ölkəni — Britaniya, Rusiya və Koreyanı geridə qoyub.

*Ardı 3-cü səh.*

### Mövqelərimiz yenə atəşə tutuldu

Erməni silahlı bölmələri srağagün və dünən gecə Ermənistan Respublikasının İcevan rayonunun ərazisindəki adsız yüksəkliklərdə, işğal olunmuş Ağdam rayonunun Mərzili, Yusifcanlı, Goranboy rayonunun Tapqaraqoyunlu kəndləri yaxınlığında və Gədəbəy rayonunun ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən atəşkəs rejimini pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən APA-ya verilən məlumata görə, düşmən cavab atəşi ilə susdurulub.

### İranda zəlzələnin vurduğu ziyanın məbləği açıqlanıb

İlkin qiymətləndirmələrə görə, avqustun 11-də İranda baş verən zəlzələnin vurduğu ziyan 650 milyon ABŞ dolları təşkil edir. APA-nın İranın “Mehrnews” saytına istinadən yaydığı məlumata görə, bu barədə Şərqi Azərbaycan əyalətin qubernatorunun müavini Məhəmməd Əşrəf bildirib. O, bu məbləğin arta biləcəyini vurğulayıb. M. Əşrəfin sözlərinə görə, İranın Şərqi Azərbaycan əyalətində zəlzələ nəticəsində 307 kəndə ziyan dəyib, zəlzələ zonasının 4 şəhərində isə binalar çatlayıb.

Xatırladaq ki, baş vermiş fəlakət nəticəsində 306 nəfər həlak olub, 2000 nəfər isə yaralanıb.

### Bu gün 42 dərəcə isti olacaq

Bakı və Abşeron yarımadasında avqustun 15-də hava şəraitinin əsasən günəşli keçəcəyi gözlənilir. Şimal küləyi gündüz cənub küləyi ilə əvəz olunacaq. Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Departamentindən APA-ya verilən məlumata görə, havanın temperaturu gecə 23-27, gündüz 36-38, bəzi yerlərdə 40 dərəcə isti təşkil edəcək.

Abşeronun çimərliklərində dəniz suyunun temperaturu Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zaqulbada 26-27, Buzovna, Mərdəkan, Şüvəlanda 27-28, Türkan, Hövsan, Şıx, Sahildə 29-30 dərəcə isti olacaq.

Azərbaycanın rayonlarında avqustun 15-də hava şəraitinin əsasən yağmursuz keçəcəyi gözlənilir. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 21-26, gündüz 36-39, bəzi yerlərdə 42, dağlarda gecə 14-18, gündüz 29-34 dərəcə isti olacaq. Avqustun 15-16-da Abşeron yarımadasında günəşli hava şəraitinin davam edəcəyi, zəif cənub küləyinin əsəcəyi gözlənilir.

### Mənzil növbəsində duranlara torpaq sahələri verilə bilər

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası (AHİK) ev tikintisi üçün torpaq sahələrinin ayrılması prosesinin sadələşdirilməsi ilə bağlı Nazirlər Kabinetinə müraciət etmək niyyətindədir. “APA-Economics”in məlumatına görə, bunu AHİK sədri Səttar Mehbalıyev bildirib. Onun sözlərinə görə, Nazirlər Kabineti, AHİK və Azərbaycan Sahibkarlar Konfederasiyasının imzaladığı Baş Kollektiv Sazişdə nəzərdə tutulub ki, uzun müddət mənzil növbəsində duran vətəndaşların yaşayış şəraitinin yaxşılaşdırılması üçün onlara heç olmasa torpaq sahəsi verilsin ki, insanlar özlərinə ev tiksinlər: “Elə adam var, SSRİ dövründən 30-40 il mənzil növbəsində durub, sonradan zavod dağılıb, onları keçiriblər Bakı şəhər İcra Hakimiyyətinin mənzil növbəsinə və s. Belə problemlər var və biz bunların aradan qaldırılmasını istəyirik”. AHİK sədrinin sözlərinə görə, bu məsələ (işçilərə torpaq ayrılması) respublika səviyyəsində həll edilməlidir: “Rayonlarda da hər hansı kolxoz-sovxoz və ya zavodlarda işləyənlər olub və onlar da vaxtı ilə növbəyə durublar. Onlara da öz rayonlarından torpaq sahəsi verilməsi nəzərdə tutulur”.

S.Mehbalıyev bildirib ki, Baş Kollektiv Sazişin imzalanmasından keçən vaxt ərzində hələlik bu sahədə işlər başlanmayıb. Bununla əlaqədar olaraq AHİK hökumətə müraciət edərək müqavilədəki bu bəndi xatırladacaq: “3-4 ay keçəndən sonra məktub yazacağıq ki, sizin bu maddə hələ işləmir, baxın görün bunun həyata keçirilməsi üçün nə etmək olar”.

Qeyd edək ki, Azərbaycanda əhaliyə şəxsi mənzil tikintisi üçün torpaq sahələrinin ayrılması prosesinin sadələşdirilməsi Nazirlər Kabineti, AHİK və ASK arasında 2012-2013-cü illər üçün imzalanmış Baş Kollektiv Sazişdə nəzərdə tutulur. Sazişdə bildirilir ki, sənədi imzalayan tərəflər əhaliyə şəxsi mənzil tikintisi üçün torpaq sahələrinin ayrılması prosesinin və mənzil tikintisi üçün kreditlərin verilməsi sisteminin təkmilləşdirilməsinə, tikinti materiallarının qiymət və keyfiyyətinə nəzarətin gücləndirilməsi üçün tədbirlər görəcəklər.




# BBC-nin iddiaları necə puç oldu?

(Əvvəli 1-ci səh.)

3. Britaniya — 564 idmançı, 65 medal (11,5 faiz)
4. Rusiya — 438 idmançı, 82 medal (18, 7 faiz)
5. Koreya — 238 idmançı, 28 medal (11,8 faiz)

İndi bizdən geridə olan və olimpiadaya Azərbaycandan daha artıq idmançıyla qatılan iki ölkənin göstəricisinə baxaq:

31. Türkiyə — 114 idmançı, 5 medal (4, 4 faiz)
32. İsveçrə — 106 idmançı, 4 medal (3,8 faiz)

Və nəhayət, Azərbaycanla eyni sırada — 30-cu yerdə olan Polşanın göstəricisinə baxaq: 221 idmançı, 10 medal (4,5 faiz).

Bu statistik göstəriciləri xatırlatmaqla onu qeyd etmək istəyirdik ki, olimpiadada hələ ilk addımlarını atan Azərbaycan bu nəhəng yarışa elə yarandığı ilk gündən qatılan, yəni bizdən daha çox təcrübəsi olan bir çox nəhəng ölkələri belə ya medal sayında, ya da faiz göstəricisində geridə qoya bilib.

Azərbaycan idmançıları daha çox medal qazana bilərdilərmi? Cavab birmanalıdır: bəli. Əlbəttə, bu məsələdə müəyyən idmançılarımızın təcrübəsizliyi, bəzilərinin yaşlanması, bəzilərinin arxayınçılığı, bəzilərinin də keçmiş uğurlardan başının gicəllənməsi və rəqibinə yuxarıdan aşağı baxması (məsələn, cüdoçu Elnur Məmmədli kimi) medalların sayının daha çox olmasını əngəllədi. Amma elə idmançılarımız da vardı ki, medal qazansalar da, şəxsən özləri göstərdikləri nəticələrindən narazı qaldılar. Məsələn, Yunan-Roma güləşçisi Rövşən Bayramovun finaldakı uğursuzluğunu bəxtsizliklə də əlaqələndirmək mümkündür. Amma olimpiadada elə idmançılarımız da oldu ki, onlar nəinki bu yarış başlayandan, hələ bir il öncədən üzərlərində psixoloji təzyiq hiss edirdilər. Boksçularımızdan söhbət gedir.



### YENƏ BBC...

Çoxlarının yadındadır: bir il əvvəl Bakıda keçirilən boks üzrə dünya çempionatı zamanı dünyanın ən ciddi media quruluşlarından sayılan BBC telekanalı ortaya belə bir iddia atdı ki, Azərbaycan Boks Federasiyası (ABB) London olimpiadasında iki qızıl medal qazanmaq üçün 9 milyon dollar rüşvət verib. Bu, bütün səviyyələrdə — istər ABB, istərsə də AİBA — Beynəlxalq Həvəskar Boks Federasiyasının rəhbərliyi tərəfindən təkzib edilsə də, BBC əsassız iddialarını davam etdirdi. Etiraf edək ki, ölkəmizin özündə də BBC-nin bu küyünə gedənlər az olmadı. Xüsusən bu, Azərbaycan Boks Federasiyasına prezidentlik edən fövqəladə hallar naziri Kəmaləddin Heydərov haqda hər gün müxtəlif uydurmalar qoşan, şayiələr yayanlar üçün göydəndüşmə bir fürsət oldu. Az qala hər gün təmsil etdikləri qəzetlərdə, sosial şəbəkələrdə Kəmaləddin Heydərovun işgüzar nüfuzuna zərbə vurmaq üçün "Boks Federasiyası olimpiadada iki qızıl medal alıb" kimi heç bir əsaslı fakta söykənməyən, qeyri-peşəkar fikir səsləndirənlər əslində bütün bunlarla həm də yeni yetişməkdə olan istedadlı idmançılarımızı ruhdan salır, onlara mənəvi zərbə endirirdilər. Məsələn, bu, 19 yaşı hələ beş ay sonra tamam olacaq Teymur Məmmədova aiddir. Onun olimpiadadakı hər qələbəsindən sonra da idmandan zərrə qədər anlayışı olmayanlar anormal fikirlərini davam etdirirdilər: "Teymurun qızılı indidən hazırdır".

Teymur yarımfinala qədər gəldi, burada özündən 11 yaş böyük olab təcrübəli İtaliya boksçusu Russo Klementeyə... uduzmadı, uduzduruldu. Halbuki Teymur birinci və ikinci raundlarda bu idmançıdan açıq-aşkar üstün idi. Xüsusən ikinci raunda Teymur təcrübəli rəqibini düz iki dəfə nokdauna salmağı bacarmışdı. Bəs necə oldu ki, guya Azərbaycan Boks Federasiyası tərəfindən ələ alınmış hakimlər məhz elə gəmin döyüşdə Teymurun halal qələbəsini əlindən alıb Klementeyə verdilər? Niyə təkcə elə ikinci raunndakı fəallığına, ardı-arası kəsilməyən zərbələrinə görə Teymurun əməyi haqq etdiyi 8-9 xalla yox, cəmi 6 xalla qiymətləndirildi? Hakim doğrudan da ələ alınmışdısa, niyə bəs onda idmançımızın finala gedən yolunun qarşısı alındı?

Teymurun rəqibi ümumi nəticədə (15:13) qalib elan olundu. Buna ilk etiraz elə boksçunun özündən gəldi. Döyüşdən sonra azərbaycanlı jurnalistlərə açıqlamasında Teymur dedi: "Mən yarımfinalda italiyalı Klemente Russoya qalib gəlmişəm. Əsasən də ikiinci raundda rəqibimdən açıq-aşkar üstün idim. Həmin raundda onu iki dəfə nokdauna saldım. Ancaq hakimlər zərbələrimi düzgün qeydə almadıqlarından həmin raunddan sonra yalnız 6:4 hesabı ilə öndə olduğumu bildirdilər. Başqa sözlə, hakim ədalətsizliyinin növbəti qurbanı mən oldum. Döyüşdən sonra həm hakimlərə, həm də Russoya etirazımı bildirdim. Hətta italiyalı boksçu paltardəyişmə otağında mənə yaxınlaşaraq dedi ki, "bilirəm, sən qalib gəlmisən, lakin bir məqamı unutma, bu, mənim son olimpiadamdır, sənin gələcəyin isə qabaqdadır".

Elə həmin gün gecə BBC-nin və ona qoşulan Azərbaycanın müxalif mediasının iddialarını növbəti dəfə alt-üst edən, Azərbaycanın boks azarkeşlərinin isə məyusluğuna səbəb olan ikinci hadisə baş verdi. Olimpiadanın yarımfinalına vəsiqə qazanan boksçumuz Məhəmmədrəsul Məcidov burada gərgin keçən döyüşdə məğlub elan edildi. Yeri gəlmişkən, Teymur Məmmədovda olduğu kimi, M.Məcidovun da rəqibi italiyalı idi. Roberto Kammarelləyə qarşı döyüşün necə gərgin keçdiyi elə hesabda da əksini tapdı: 12:13.

Azərbaycan Boks Federasiyası məhz bu döyüşdən sonra rəsmi protest verdi.

Həmin döyüşdən sonra baş verənlərin canlı şahidi olan azərbaycanlı jurnalistlərin sözlərinə görə, Azərbaycan Boks Federasiyasının prezidenti Kəmaləddin Heydərov bununla Beynəlxalq Həvəskar Boks Assosiasiyasının (AIBA) rəhbəri Çinq-Kuo Vuya kəskin etirazını bildirib. Heydərov olimpiadada hakimlərin Azərbaycan boksçularına qarşı bir qayda olaraq ədalətsiz mövqe tutmalarından narazılığını büruzə verib. O təkcə Məhəmmədrəsul Məcidov deyil, yarımfinalda çıxışını dayandıran digər təmsilçimiz Teymur Məmmədovun da bilərəkdən uduzdurulmasını AIBA prezidentinin nəzərinə çatdırıb və bütün bunlarla bağlı lazımi tədbir görülməsinin vacibliyini bildirib.

Öz növbəsində Çinq-Kuo Vu məsuliyyəti üzərindən ataraq hakimlərin işinə müdaxilə edə bilmədiyini deyib. Buna baxmayaraq Azərbaycan Boks Federasiyasının prezidenti əsaslı etirazını davam etdirib: "Necə olur ki, Azərbaycan idmançısının nəticəsi sonradan ləğv olunur, onun rəqibinə qalibiyyət verilir, lakin bu gün hamının gözü qarşısında boksçularımıza qarşı qeyri-obyektiv qərarlar verən hakimlərin işinə müdaxilə etmək müşkülə çevrilir?".

Təbii ki, AIBA rəhbəri bu suala cavab verməyə çətinlik çəkib.

Bəli, hər iki boksçumuz məhz italiyalı rəqibləri ilə görüşdən sonra mübarizəni dayandırdı, bizimkilərin narazılığı da məhz buradan yarandı. Amma Azərbaycanın etirazları qəbul olunmadı.

İtaliya, oyun-alqı satqılarında, hakimləri ələ almaq üzrə "ixtisaslaşmış" İtaliya qalib elan edildi.

Amma BBC-nin, onunla həmrəy olan Azərbaycanın bəzi müxalifət dairələrinin əvvəldən heç bir əsası olmayan iddiaları da puç oldu.

**ELNUR**

# Tanınmışlar idmançılarımızın olimpiya uğurlarından danışdı

Londonda keçirilən XXX Olimpiada başa çatdı. Budəfəki yarışda 53 idmançı ilə iştirak edən komandamızın müstəqillik dövrünün ən uğurlu Olimpiadasına imza atdı. İdmançılarımız London-2012-də 2 qızıl, 2 gümüş və 6 bürünc olmaqla ümumilikdə 10 medal qazandılar. ANS PRESS ölkənin tanınmış şəxslərinin Olimpiadada idmançılarımızın göstərdikləri nəticələrlə bağlı fikirlərini təqdim edir:




**"525-ci qəzet"in baş redaktoru Rəşad Məcid:** "Mən London-2012-də idmançılarımızın iştirakını izlədim. Mənim üçün həm güləşçilər, həm boksçuların döyüşləri maraq doğurdu. Hesab edirəm ki, daha çox uğur qazana bilərdik. Xüsusən boksçularımızda belə imkan vardı. Olimpiadanın son günlərində bizim qızıl medal alan güləşçilərimizin döyüşləri ilə qürur duydum. Xüsusən son illər belə qələbələr Qarabağ müharibəsində məğlubiyyət kompleksi olan Azərbaycan xalqı üçün çox vacibdir. Belə qələbələr özünə güvəni, özünə inamı yaratmaq üçün bizə çox faydalıdır".

Futbol üzrə Azərbaycan yığmasının keçmiş baş məşqçisi Şahin Diniyev deyib ki, uğurlarımız göz qabağındadır: "10 medal qazanmaq kiçik bir ölkə üçün böyük bir qəhrəmanlıqdır. Əsasən də güləşçilərimiz həqiqətən də sübut etdilər ki, bu idman Azərbaycanda ənənəsi olan idman növüdür".

**Azərbaycan Voleybol Federasiyasının vitse-prezidenti, Əməkdar Bədən Tərbiyəsi və İdman Xadimi Vaqif Əliyev:** "Hər dəfə olduğu kimi bu Olimpiya oyunlarında da idmançılarımız yaxşı nəticələr göstərdilər. Xüsusən güləşçilərimizin qazandığı uğurlar təqdirəlayiq nəticədir. 2 qızıl, 2 gümüş, 6 bürünc, ümumilikdə 10 medalla ölkəmizin 205 dövlət arasında 30-cu olması Azərbaycan üçün əla nəticədir. Bütün bu məsələlərdə sözsüz ki, dövlət başçısı, Milli Olimpia Komitəsinin Prezidenti cənab İlham Əliyevə minnətdar olmalıyıq. Çünki onun birbaşa idmana rəhbərliyi Azərbaycanı dünya ölkələri arasında, Olimpiya hərəkatında uğur qazanmasına səbəb olub. Ümid edirik ki, növbəti Olimpia oyunlarında, 2016-cı ildə Braziliyanın Rio-de-Janeyro şəhərində daha yaxşı uğur qazanacağıq və medallarımızın da sayı daha çox olacaq. Çox arzu edərdik ki, bizim voleybolçu qızlarımız da Olimpiya oyunlarında iştirak etsinlər. Bundan ötrü federasiyanın rəhbərliyi artıq indidən komandalar qarşısında bu məqsədi qoyub. Çalışacağıq ki, növbəti olimpiya oyunlarında Azərbaycanı voleybolçu qızlarımız da təmsil etsinlər".

**Millət vəkili Aydın Mirzəzadə:** "Ümumilikdə həm oyunlara hazırlığı, həm də idmançıların çıxışlarını müsbət qiymətləndirirəm. Azərbaycan idmanı beynəlxalq aləmdə reytinqini itirmədi. Azərbaycan özü üçün qeyri-ənənəvi idman növlərində də artıq müəyyən nəticələr əldə edə bilib. Hər Olimpiadadan Olimpiadaya medallarımızın sayının artması, yeni idman qəhrəmanlarımızın ortaya çıxması əlbəttə bizi çox sevindirir. Bu Azərbaycanda dövlət tərəfindən idmana, Olimpiya hərəkatına böyük qayğının nəticəsidir".

**Müğənni Baloğlan Əşrəfov:** "Əvvəldən axıra kimi idmançılarımızın çıxışlarını izlədim. İdmançılarımız uduzan zaman çox dilxor olurdum. Yaxşı ki, axıra yaxın bizim Toğrul Əliyev, istər Şərif Şərifov qızıl medal qazanmaqla dünyaya sübut etdilər ki, Azərbaycanın da gözəl idmançıları var. Təbii ki, mən idmançılarımızın qələbəsinə sevinir, uğursuzluqlarına kədərlənirəm. Lakin Toğrulun qələbəsinə hönkürtü ilə ağladım. Evdə də buna bir az narahat oldular. Əlbəttə kədərdən əlavə sevinc göz yaşları da var. Toğrulun qələbəsinə sevincimdən özümü saxlaya bilmədim. Gümüş və bürünc medal alan idmançılarımıza da Allah can sağlığı versin. Onların hamısı Azərbaycan bayrağının dalğalanmasında böyük rol oynadı".

**Politoloq Rasim Ağayev:** "Olimpiya Oyunlarında medal qazanmaqla yanaşı iştirak da vacibdir. Olimpiadada bu cür təmsil olunmaq isə böyük uğurdur. Ümid edirəm ki, növbəti yarışlarda biz daha yaxşı nəticələr əldə edəcəyik".

**Bakı Bələdiyyə Teatrının aktyoru İlqar Musayev:** "Təbii ki, hər bir Azərbaycanlı kimi hər Olimpiya olanda otururaq evimdə ailəlikcə oyunları izləyirdik. İdmançılarımızın uğuruna çox sevindim. Ümid edirəm ki, növbəti Olimpiya oyunlarında daha böyük nəticələr əldə edəcəyik".

# Ukrayna səfirliyi Ermənistana gizli silah satışı haqda bəyanat yaydı

(Əvvəli 1-ci səh.)

Qmız Azərbaycanın bu müqavilədən xəbər tuta biləcəyi barədə də qeyd edir.

Azərbaycanla Ukrayna arasında hərbi-texniki və enerji əməkdaşlığını zərbə altında qoymamaq üçün "Ukrspeseksport"a "erməni tərəfi ilə sazişin həyata keçirilməsi faktından açıq şəkildə imtina etmək" təklif edilir. Bununla yanaşı, Ermənistan şirkətinə "öz ətrafında etibarsız təchizatçı" kimi "Ukrspeseksport" rəhbərliyi və Ukrayna tərəfi arasında münasibətlərin kəskin pisləşməsi barədə arbitraja yalandan müraciət etmək təklif edilib.

Ukrayna Müdafiə Nazirliyinin Baş Kəşfiyyat İdarəsinin rəisi "Smerç" komplektlərinin satışının "Aİ və ya MDB ərazisində qeydiyyatdan keçmiş saxta firmalardan istifadə etməklə" Moldova ərazisində konspirasiya şəraitində həyata keçirilməsi təklif olunur.

Məmulatlar üzərində nişanlar bu zaman dəyişdirilməli idi. Yalanın üstü açılacağı halda isə "İqla" komplekslərinin Liviyadakı azadlıq hərəkatı döyüşçülərinin həmin ölkədə talan etdikləri anbarlardan çıxarılması ilə "əfsanələşdirilməsi" nəzərdə tutulmuşdu.

# Alim Qasımovun "qoşa 5"i

## BÖYÜK SƏNƏTKAR DÜNƏN 55 YAŞINI QEYD EDİB

Azərbaycan və dünya musiqi sənətinin görkəmli nümayəndəsi, böyük xanəndə Alim Qasımovun dünən 55 yaşı tamam olub. Ustad sənətkar 1957-ci il avqustun 14-də dünyaya gəlib. Xanəndənin yubileyilə bağlı "ANSPress"in yaydığı məlumatda bildirilir: "Valideynləri onun musiqiyə və xüsusilə muğama qarşı olan istedadını uşaqlıqdan biliblər, ancaq ata-anasının ona musiqi təhsili verməyə imkanları olmayıb. Atasının əllərindən tək bir şey gəlirdi, dəf düzəltmək üçün keçi kəsmək. Bu dəf Alimin birinci musiqi aləti idi. Bundan başqa, Alim gözəl və hamıdan fərqlənən səsə də sahib idi. Alim Qasımovun onda da bəxti gətirmişdi ki, o, Bakıda muğam məktəbinin ən tanınmış və istedadlı müəllimlərindən dərs almışdı. 25 yaşında həyatında birinci muğam müsabiqəsində müvəffəqiyyət qazanan Alim o vaxtlarda muğam sənətini, xüsusilə də "tarab" janrını araşdırmaqla məşğul olurdu. Son zamanlar doqquz albomu çıxan Alim Qasımov hər bir musiqi sənətkarının nail olmağa çalışdığı mükafata layiq görülüb. O, 1999-cu ildə Beynəlxalq IMC UNESCO Musiqi Mükafatını alıb. Muğam sənəti ilə Fransa, İngiltərə, Almaniya, Belçika, İspaniya, Braziliya, Honqkonq, Yaponiya, İran və Amerika Birləşmiş Ştatları kimi ölkələrdə konsertlərlə çıxış edən sənətçi bütün dünyaya Azərbaycan muğam sənətinin, Azərbaycan mədəniyyətinin tanıdılması üçün əvəzsiz rol oynayır. Alim Qasımov ABŞ-ın məşhur Corctaun Universiteti və mərkəzi İordaniyada yerləşən Strateji Araşdırmalar Mərkəzinin keçirdiyi müsabiqədə dünyanın ən nüfuzlu 500 müsəlmanı arasından seçilən 4 azərbaycanlıdan biri olub. Sənətkar 26 may 2012-ci ildə Azərbaycanın paytaxtı Bakı şəhərində keçirilən 57-ci "Eurovision" Mahnı Müsabiqəsinin final mərhələsində Azərbaycan təmsilçisi Səbinə Babayeva ilə eyni səhnəni paylaşıb".



55 yaşı ilə əlaqədar Alim Qasımov "Modern.az"a yığcam müsahibə verib:

*"— Maraqlıdır, sizi ilk təbrik edən kim oldu?*

— Dostum Bəhruz.

*— Ümumiyyətlə, ad gününü qeyd etməyi xoşlayırsınızmı?*

— Evə gələn qonaqlara görə istər-istəməz adamın üzərinə məsuliyyət düşür. Bu gün iftar süfrəsi açılacaq. Bütün dostlarımı, oruc tutanları çağırmışam. Bu da olacaq mənim ad günüm.

*— İndiyə kimi ən yaddaqalan ad gününüz nə vaxt olub?*

— (fikirləşir) Mənim ad günlərimi həmişə ailəm keçirir. Özüm etiraz etsəm də, bir təhər məni yola gətirirlər. Adama diqqət olanda, deyirsən ki, nə yaxşı ki varam, yaşamışam. Belə olanda sevinirsən ki, nə yaxşı ki, doğulmuşam.

*—Ad günü hədiyyəsi olaraq, nə xoşlayırsınız?*

— Ən yaxşısı puldur. Hədiyyə kimi pul xoşlayıram. Puldan başqa mənim üçün maraqlı hədiyyə yoxdur.

*— Bəs hədiyyə verməklə aranız necədir?*

— Mənlik deyil.

*— Ad gününüz münasibətilə qızınız Fərqanə xanım sizə "Oxu, Alim" adlı mahnı bəstələyib. Necədir, klip-mahnı sizi qane etdi?*

—Son vaxtlara qədər mənim o mahnıdan xəbərim olmayıb. Heç demək olmaz ki, o mahnını Fərqanə oxuyub. Çox qeyri-adidir.

*— Yaxında səfəriniz var?*

— Ayın 21-də Londona gedirik. Sentyabr ayında da Moskvada, Daşkənddə, İstanbulda konsert vermək fikrimiz var".

***55 yaşı münasibətilə ustad xanəndə Alim Qasımovu ürəkdən təbrik edir, ona cansağlığı, həyatda və yaradıcılıqda yeni uğurlar arzulayırıq!***

# Ombudsman Kuzey Kıbrıs Türk Cümhuriyyətinin Bakı təmsilçisini qəbul edib

Azərbaycanın İnsan Hüquqları üzrə Müvəkkili Elmira Süleymanova Kuzey Kıbrıs Türk Cümhuriyyətinin ölkəmizdə diplomatik missiyasını başa vuran Bakı təmsilçisi Zeki Qazioğlunu onun xahişi ilə qəbul edib. Bu barədə Ombudsman Aparatının mətbuat xidmətindən məlumat verilib.

Görüşdə ombudsman qonağa gələcək diplomatik fəaliyyətində daha böyük uğurlar arzulayaraq Azərbaycanın dünya dövlətləri, o cümlədən türk dünyasının bir parçası olan Kuzey Kıbrıs Türk Cümhuriyyəti ilə dostluq və tərəfdaşlıq əlaqələri qurduğunu söyləyib.

Müvəkkil insan hüquqları sahəsində fəaliyyətinin əsas istiqamətləri, görülmüş işlər barədə ətraflı məlumat verib. O, dövlət qurumları, o cümlədən ölkə Parlamenti, həmçinin QHT-lər, vətəndaş cəmiyyəti, icmalar, beynəlxalq təşkilatlar və xarici ölkələrin səfirlikləri ilə insan hüquqları sahəsində sıx əməkdaşlıq əlaqələri qurduğunu söyləyib, bu istiqamətdə işlərin daha da artdığını və təkmilləşdirildiyini vurğulayıb.

Ölkə prezidenti İlham Əliyevin 27 dekabr 2011-ci il tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı"nın (MFP) 2006-cı ildən uğurla həyata keçirilən İnsan Hüquqlarının Müdafiəsi üzrə Milli Fəaliyyət Planının məntiqi davamı olaraq, yeni prioritetlərə uyğun konkret istiqamətlər, tədbirlər müəyyən etdiyi, hazırda bu proqramın uğurla icra olunduğu, adı çəkilən sənədin təbliği məqsədilə ombudsman tərəfindən bütün rayonları əhatə etməklə ictimai dinləmələr keçirildiyini diqqətə çatdırıb. Həmçinin müvəkkilin fəaliyyətində insan hüquqları sahəsində maarifləndirmə işinin də mühüm yer tutduğu, bu sahədə çoxsaylı tədbirlərin, treninqlərin keçirildiyi, hüquqi nəşrlərin, plakatların hazırlandığı bildirilib. Uşaq hüquqları üzrə maarifləndirməyə də böyük diqqət yetirildiyi, ombudsmanın təşəbbüsü ilə Təhsil Nazirliyi ilə əməkdaşlıqda "Uşaq hüquqları üzrə pilləli tədris layihəsi"nin Bakıda və respublikanın bir neçə rayonunda orta ümumtəhsil məktəblərində uşaqların həm də təlimçi kimi iştirakı ilə uğurla həyata keçirildiyi vurğulanıb.

E. Süleymanova Ermənistanın Azərbaycan torpaqlarını işğal etdiyini, Dağlıq Qarabağ münaqişəsi nəticəsində öz yurdunda qaçqın və məcburi köçkünə çevrilmiş bir milyon azərbaycanlının hüquqlarının kütləvi şəkildə, kobudcasına pozulduğunu qeyd etdi: "Xalqların, bütün tərəqqipərvər bəşəriyyətin, sülhə, əmin-amanlığa, inkişafa can atdığı hazırkı dövrdə Ermənistan dövləti, təəssüf ki, bu gün də etnik təmizləmə, terror, zorakılıq siyasəti yürüdür, bununla da bütövlükdə sülhyaratma və sabitlik proseslərinə mənfi təsir göstərir". Azərbaycanın zəbt edilmiş ərazilərinin işğaldan azad edilməsi, azərbaycanlı qaçqın və məcburi köçkünlərin doğma yurd yerlərinə qayıtması, fundamental insan hüquqlarının bərpası ilə bağlı ombudsmanın dəfələrlə nüfuzlu beynəlxalq təşkilatlara ünvanlanmış bəyanatlar verdiyi diqqətə çatdırılıb.

Z.Qazioğlu müvəkkilin insan hüquqları sahəsində səmərəli fəaliyyətini, onun səmimi münasibətini yüksək qiymətləndirərək faydalı fikir və məlumat mübadiləsi üçün minnətdarlığını bildirib, Azərbaycan ombudsman təsisatı ilə əməkdaşlıqda maraqlı olduqlarını vurğulayıb.

Görüş zamanı ombudsman insan hüquqları sahəsində, digər prioritet məsələlər əsasında, şəbəkə şəklində əməkdaşlığa üstünlük verdiyini söyləyib, tərəfdaşlığın daha da artırılmasını vacib hesab etdiyini çıxışında önə çəkib.

**S.MÜRVƏTQIZI**

“Fikir, söz və məlumat azadlığının, plüralizmin inkişaf etdirilməsi” istiqaməti üzrə

# “Zaqatala” qəzeti: 90 yaşın astanasında




***BAŞ REDAKTOR İBRAHİM BƏXTİYAROĞLU:*** “QƏZET BU İLLƏR ƏRZİNDƏ 4 DƏFƏ ƏLİFBANIN, 3 DƏFƏ İSƏ ÇAP TEXNOLOGİYALARININ DƏYİŞMƏSİLƏ MEYDANA GƏLƏN ÇƏTİNLİKLƏRİ YAŞAMALI OLUB”

**“Zaqatala” qəzetinin taleyində elə iftixar etməli, qürur hissi keçirməli hadisələr var ki, bunlar barədə həyəcansız söz açmaq olmur”. Bu fikirləri “Zaqatala” qəzetinin baş redaktoru, Əməkdar mədəniyyət işçisi İbrahim Bəxtiyaroğlu rəhbərlik etdiyi mətbu orqan fəaliyyəti haqqında danışarkən bildirib. Onun sözlərinə görə, qəzet 1923-cü ilin martında fəaliyyətə başlayıb:**






“Adı da o dövrə uyğun gəlirdi — “Zaqatala kəntçisi”. Rəsmi rəqəmlərə müraciət etsək görərik, qəzetimiz o dövrdə ölkəmizdə ana dilimizdə nəşr olunan 23 qəzetdən biri olub. Əhatə dairəsinə gəlincə 3 məkanı- Zaqatalanı, Balakəni və Qaxı əhatə edirdi. Düz 7-8 il ərzində bölgənin ilk mətbu orqanı kimi “Zaqatala kəntçisi” fəaliyyət göstərib. Ötən əsrin 20-ci illərində bölgələrdə qəzet çıxarmaq çox çətin bir iş sayılırdı. Əvvəla ixtisaslı kadrlar yox idi. İkincisi iki səhifədən ibarət olan və əski ərəb əlifbası ilə nəşr olunan qəzeti hərf-hərf yığmaq, əllə çap etmək lazım gəlirdi. O dövrdə “Zaqatala kəntçisi”nin bəxti gətirmədi. Son araşdırmalarımıza əsasən deyə bilərik ki, qəzetin ilk redaktoru Zəkəriyyə Balaxlinski olsa da, qəzetin ərsəyə gəlməsində 1920-1930-cu illərdə Zaqatala qəza və inqilab komitələrində birinci şəxs sayılan Xəlil Ağamirovun xidmətləri az olmayıb. Belə ki, Xəlil Ağamirov 1910-1912-ci illərdə “Kaspi” mətbəəsində mürəttib işləmişdi və qəzet işini az-çox bilirdi. Zamanın tələblərinə uyğun olaraq qəzetimiz sonralar, yəni 1923-1962-ci illərdə “Kolxozun səsi”, “Kolxoza doğru”, “Bolşevik kolxozu uğrunda”, 1962-1991-ci illərdə “Qırmızı bayraq” və nəhayət 1991-ci ilin sonundan isə “Zaqatala” adları altında fəaliyyət göstərib”.

İ.Bəxtiyaroğlunun sözlərinə görə, “Zaqatala” qəzeti fəaliyyət göstərdiyi 89 il ərzində 4 dəfə əlifbanın, 3 dəfə isə çap texnologiyalarının dəyişməsi zamanı meydana gələn çətinlikləri yaşamalı olub. O qeyd edib ki, 1962-1965-ci illərdə o zamankı “Qırmızı bayraq” qəzeti Azərbaycan KP MK-nın və Azərbaycan SSR Nazirlər Sovetinin qəzeti kimi Balakən, Zaqatala və Qax rayonlarının mətbu orqanı funksiyasını yerinə yetirib: “Qeyd etmək yerinə düşər ki, hər 3 rayonun yetirmələri onilliklər boyu Zaqatalada nəşr olunan qəzetin fəaliyyətində yaxından iştirak edib, müxtəlif vəzifələrdə çalışıblar. Son 50 ili nəzərə alsaq qəzetə Nadir Əliyev, Rəcəb Rəcəbov, Əli Süleymanov, Sevil Sadıxova, Şaban Musayev, Zenfira Nəsibova və mən, İbrahim İbrahimov rəhbərlik etmişik. Yerli qəzetimizdə ilk qələm təcrübələri dərc olunan Əhməd İsayev, Hikmət Əzimov, Qurban Cəbrayıl və çoxlu sayda qələm sahibləri Azərbaycan mətbuatının tanınmış nümayəndələri olublar.

Fərəhli haldır ki, ötən əsrin 70-80-ci illərində ulu öndər Heydər Əliyevin jurnalist kadrlarının hazırlanmasına göstərdiyi böyük diqqət sayəsində Zaqatala jurnalistikası perspektivli və istedadlı kadrlarla zənginləşib. Qəzetin fəaliyyətinə həmişə yüksək qiymət verilib, onun əməkdaşları müxtəlif fəxri adlara və mükafatlara layiq görülüblər. Müxtəlif illərdə qəzetin əməkdaşlarından 2 nəfəri “Əməkdar mədəniyyət işçisi”, Həsənbəy Zərdabi, 1 nəfər “Qızıl qələm” mükafatı alıb”.

Qəzetin baş redaktoru bildirib ki, “Zaqatala” qəzeti bölgə qəzetləri içərisində müxtəlif yaradıcılıq müsabiqələrində ən fəal iştirak edən qəzetlərdən biridir. İ.Bəxtiyaroğlunun sözlərinə görə, qəzetin əməkdaşları son bir neçə ildə 3 dəfə Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinə Dövlət Dəstəyi Fondunun keçirdiyi fərdi jurnalist yazıları müsabiqəsinin qalibi olub, diplomlarla və pul mükafatları ilə mükafatlandırılıblar: “Bundan əlavə qəzetin əməkdaşları Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin keçirdiyi müsabiqələrdə yaxından iştirak edərək mükafata layiq yerlər tutublar.

“Zaqatala” qəzeti arxada qoyduğu onilliklər ərzində daim yeniliklər etməyi ilə diqqət mərkəzində olub. Məsələn, ötən əsrin 70-80-ci illərində əlamətdar hadisələrə həsr olunmuş buraxılışlar olurdu. Son 5-6 ildə isə qəzetimiz bölgə qəzetlərinin içərisində ilk dəfə olaraq A-2 formatına keçdi, müəyyən sayları 4, qalanı isə 2 rəngdə çap olunur. Hazırda rayon icra hakimiyyətinin yaxından köməkliyi ilə ayda 4 dəfə oxucuların görüşünə gəlir. “Zaqatala” qəzeti bir zamanlar bolşevik və kommunist ideologiyasının təbliği məqsədilə söz meydanına gəldi. Ömrünün xeyli hissəsini bu işə həsr elədi. Amma heç vaxt zaqatalalıların inamını qırmadı, daima onlarla birgə oldu. İndi saralmış qəzet səhifələrini vərəqlədikcə ötən illər bir kino lenti kimi gözümüzün önündən keçir. Minlərlə zaqatalalılarımızın, habelə qonşu Balakən və Qax rayonlarının sadə insanlarının şəkilləri, barələrində yazılan sözlər əbədi ünvan kimi qalmaqdadır. 20 ildən artıqdır ki, biz müstəqillik ideyasından sonsuz qürurla söhbət açırıq. Bu tarixi nailiyyətdən biz də payımızı ala bilmişik. Söz və mətbuat azadlığından bəhrələnirik, dünya qəzet texnologiyasına yiyələnirik. Həyatımızın, yazılarımızın təməlində nikbinlik, Azərbaycanlı olmağın fəxarəti yaşayır. “Zaqatala” qəzetinin 8000-ci yubiley sayı tarixi nailiyyətimiz olan müstəqilliyimizin bərpasının 20 illiyinə təsadüf etdi. Bu da biz qəzet işçilərinin taleyinə düşən xoşbəxt bir hadisə idi. Yubiley tədbirində Azərbaycan Mətbuat Şurasının sədri Əflatun Amaşovun, “İki sahil” qəzetinin baş redaktoru Vüqar Rəhimzadənin, “Kür” ”(Yevlax) qəzetinin baş redaktoru Əminə Yusifqızının, “Əkinçi” (Zərdab) qəzetinin redaktoru İsaməddin Əhmədovun, “Mingəçevir işıqları” (Mingəçevir) qəzetinin baş redaktoru Fərman Nəbiyevin və Qaxda çıxan “Şəlalə” qəzetinin kollektivinin iştirakı bir daha region mətbuatı olaraq “Zaqatala qəzeti”nə bəslənilən böyük hörmətin təsdiqinə çevrildi”.

İ.Bəxtiyaroğlu qeyd edib ki, “Zaqatala” qəzeti fəaliyyətini bu gün də uğurla davam etdirir. Onun fikrincə, qəzet hər həftə oxucularının görüşünə gəlir, Zaqatala rayonunun ictimai-siyasi və iqtisadi-mədəni həyatını geniş surətdə əks etdirən müxtəlif səpkili yazıları oxucular maraqla qarşılayırlar.

**BƏXTİYAR**

**(Ardı var)**

Səhifədəki material Azərbaycan Respublikasının Prezidenti yanında KİV-in İnkişafına Dövlət Dəstəyi Fondunun layihəsi üzrə çap olunub

# *Ağdam rəsmisi:* “Qarabağ” rəhbərliyinin biabırçı hərəkəti məni komandadan soyutdu”

“BU MƏSƏLƏYƏ GÖRƏ ÖLKƏ PREZİDENTİNİN VAXTINI ALMAĞA EHTİYAC GÖRMÜRƏM”

“Qarabağ” futbol klubunun yenidən Quzanlıdan imtina etməsi Ağdam İcra Hakimiyyəti və rayon camaatının kəskin etirazına səbəb olub.

İcra başçısının birinci müavini Zülfü Qasımov Supersport.Az-a müsahibəsində komanda rəhbərliyinin klubu işğal etdiyini bildirib.

**“QARABAĞ” RƏHBƏRLİYİ NƏ OYUN ÇIXARIR, BİLMİRƏM”**

***— “Qarabağ” rəhbərliyinin Quzanlıdan birdəfəlik imtina etməsinə münasibətiniz necədir?***

— Əlbəttə, çox pis. Xahiş edirəm ki, nə deyirəm yazın. “Qarabağ” rəhbərliyi heç bir səbəb gətirmədən komandanın Ağdamda — Quzanlıda oynamasından imtina edib. Xalqımız Ağdam camaatının rayonun işğal altında olmayan 23 faiz ərazisində nə çətinliklə yaşadığını yaxşı bilir. Onların yeganə təsəllisi “Qarabağ” klubunun Quzanlıda keçirdiyi oyunlardır. Ancaq komanda rəhbərliyi bunu da bizə çox gördü. Ağdam camaatı bu çətinliklərə sinə gəlirsə, onlar bura gələndə nə əziyyət çəkirdilər ki? Məgər bura gəlmək yol yorğunluğu yaradır? Komandaya hərtərəfli şərait yaradılıb, onların nazı ilə oynayırdıq. İcra hakimiyyəti rəhbərliyinin köməyi sayəsində min bir əziyyətlə stadion əla vəziyyətə gətirilmişdi. Klub rəsmiləri bəhanə gətirir ki, “Qarabağ” bütün köçkün rayonların komandasıdır. Xeyr, bu komanda Ağdamındır və heç kim bu hüququ onların əlindən ala bilməz. “Qarabağ”ın futbolçuları ilə ayrılıqda söhbət etmişəm və hamısı burada oynamaq istəyir. Bu nə oyundur rəhbərlik çıxarır, başa düşmürəm. Onlar gəlmək istəmirlərsə, tutarlı bir əsas gətirsinlər. Necə olur ki, Tovuza gedə bilirlər, Ağdama gəlməkdən imtina edirlər?!

***— Klub rəsmisi Emrah Çelikel, stadion rəhbərliyinin Quzanlı arenasının ehtiyat meydança olmasına razılıq vermədiyi üçün orada oyun keçirməyəcəklərini deyib.***

— Bu, tamamilə səhv fikirdir, belə şey olmayıb. Emrah Çelikel başqa sözlər deməli idi, ancaq deyə bilməyib. Stadion rəhbərliyindən bu məsələ ilə bağlı heç nə soruşulmayıb. Emrah Çelikel yüz faiz yalan danışır, mən buna başımla cavabdehəm. Bir müddət əvvəl klub rəhbərliyi Suraxanı stadionunu əsas, Quzanlı arenasını isə ehtiyat meydança kimi sifariş vermək istəyib. Peşəkar Futbol Liqasının prezidenti Ramin Musayev bunun mümkünsüz olduğunu bildirib. Ramin müəllim tam haqlıdır. Quzanlı stadionunu ehtiyat etmək olmaz. “Qarabağ” ev oyunlarını öz meydanı — Ağdamda oynamalıdır, qurtardı getdi. Klub çətin oyunları Quzanlıda, başqa qarşılaşmaları isə Bakıda keçirmək istəyib. Bu da doğru deyil. Bütün komandalara eyni yanaşma olmalıdır, ayrı-seçkilik etmək olmaz.

**“İCRA BAŞÇISI DA ÇOX NARAZIDIR”**

***— İcra başçısı Nizami Sadıqovun bu məsələ ilə bağlı mövqeyi necədir?***

— İcra başçısı, bir sözlə hamı klub rəhbərliyindən çox narazıdır. Nizami müəllim deyib ki, hər zaman komandanın uşaq kimi nazı ilə oynamışıq, onlara hərtərəfli şərait yaradılıb və bu gün də nə lazımdırsa etməyə hazırıq.

Bir var, “Qarabağ” Bakıda 100 azarkeşin qarşısında oynaya, bir də var ki, Ağdamda 3500-4000 azarkeşin qarşısında. Niyə bunu istəmirlər?! Bir daha deyirəm, onların



hərəkətindən baş açmaq olmur.

***— Hansı addımı atmaq fikrindəsiniz?***

— Onlarla dalaşası deyilik ki? Klub rəhbərliyi Ağdam adından danışmasın, komandanı rayondan çıxarıb öz inhisarlarına alıblar: stadionun bütün avadanlıqlarını da yığıb aparıblar. Bu, hələ harasıdır: klub rəsmilərindən hansına zəng edirsən, cavab vermir. Ayrı vaxtı məndən dəfələrlə xahişlər edirdirlər.

***— Millət vəkili Aqil Abbas klub rəhbərliyinin komandanı işğal etdiyini bildirib. Bu fikirlə razısınızmı?***

— Yüz faiz.

***— Meydançanın durumu nə yerdədir?***

— Yaxşıdır, nəzarət edirik. Ancaq klub tərəfindən kömək olmasa, yenə də yanıb məhv olacaq. Komanda rəsmilərindən başqa, stadionla məşğul olanlar belə zənglərimizə cavab vermirlər. Halbuki “Qarabağ” burdan narazı getməyib və son dəfə “İnter”i məğlub edəndə buradan toy-bayramla yola salınıb.

***— Klub rəhbərliyi şəraitsizlik, komandadan çox pul alınmasından gileylənib.***

— Onlardan Qəbələdə bir gün qalmağa 100, Ağdamda isə 5 manat alınır. İndi özünüz müqayisə edin. Hər otaqda hərtərəfli şərait — rahat çarpayı, duş, həmçinin televizor, internet vardı. Daha nə istəyirdilər?!

**“QARABAĞ”A AZARKEŞLİK ETMƏYƏCƏM”**

***— “Qarabağ”a azarkeşlik edəcəksinizmi?***

— 4-5 yaşımdan futbola böyük marağım olub. Ancaq klub rəhbərliyinin biabırçı hərəkəti, Ağdam çamaatına hörmətsizliyi məni sevimli komandamdan uzaqlaşdırdı. Şəxsən mən artıq “Qarabağ”a azarkeşlik etməyəcəm. Onsuz da telekanallar klubun oyununu vermir, versə də baxmayacam.

Komanda burada əla şəraitdə yemək yeyib, məşq, istirahət edib, oyun keçirirdi. Əziyyət çəkən biz idik, yorulan onlar?

***— Klubdan ölkə rəhbəri İlham Əliyevə şikayət etmək niyyətiniz yoxdur?***

— Məgər ölkə prezidentinin işi azdır ki, klubdan ötəri müraciət edək?! Qarabağ kimi dərdimiz var, dövlət başçısı bu problemin həlli və başqa mühüm işlərlə məşğuldur. Bir futbol komandasına görə onun vaxtını almağa ehtiyac görmürəm.

**Anar CƏFƏRSOY**

## *Tahir Süleymanov:* "Kiprdə azarkeşlərin meydançaya axışması ənənə halını alıb"



Avroliqanın play-off mərhələsində mübarizə aparacaq “Neftçi” “Apoel”lə Kiprdə keçirəcəyi qarşılaşmada mümkün təxribatla üzləşəcəyi barədə fikirlərə münasibət bildirib.

Qeyd edək ki, bu komandalar hələ 1995-ci ildə UEFA-nın o vaxtı Kuboklar kuboku yarışındakı qarşılaşması zamanı Türkiyənin bayrağı yandırılıb, azərbaycanlı futbolçulara psixoloji təzyiq göstərilib.

“Neftçi”nin vitse-prezidenti Tahir Süleymanov Qol.Az-ın müxbiri ilə söhbətində deyib ki, ötən həftə UEFA-da keçirilən püşkatmadan sonra “Apoel”in nümayəndələri ilə görüş keçiriblər: “Bu məsələni həmin görüşdə müzakirə etdik. Çünki Kiprdə azarkeşlərin meydançaya axışması təsadüfi yox, az qala ənənə halını alıb. Buna görə də, Kipr klublarıyla bağlı müəyyən addımlar atılır. İlk əvvəl “Apoel”in nümayəndələri bu məsələnin üstündən ötmək istədilər. Ancaq biz komandanın təhlükəsizliyi ilə bağlı məsələni xüsusi qabartdıq”.

T.Süleymanovun sözlərinə görə, “Apoel” klubu Bakıdakı ilk oyun üçün “Neftçi”dən min bilet istəyib: “Biz onlara öz fikrimizi bildirdik ki, bu, mümkün olan şey deyil. Ancaq bütün bunlarla yanaşı azarkeşlərə səslənirik. Əgər Kiprdən oyunu izləmək üçün min azarkeş gəlişi gözlənilirsə, keçmişdə olan məsələləri nəzərə alaraq, azarkeşlərimiz stadionu doldurmalıdır. Belə bir oyunlarda azarkeşlərin dəstəyi hər zaman böyük olur. İnanırıq ki, azarkeşlərimiz stadionu dolduracaqlar və Kipr komandasını meydana çıxmamış təsir altında saxlayacaqlar. Bütün dünyada bu belədir. Futbolçularımızın öz azarkeşlərini gördüyü an əhval-ruhiyyələri daha yüksək olur. Yaxşı bilirsiniz ki, Kipr komandası çox güclü və təcrübəli komandadır. Lakin bütün bunlara baxmayaraq, çalışacağıq ki, mərhələnin taleyini ilk oyunda həll edək. Çünki başqa yolumuz yoxdur. Səfər qarşılaşmaları çox ağır olur. Məhz buna görə də, qol buraxmamalı və bacardığımız qədər çox qol vurmalıyıq”.

## *Obama:* "Mən Hüseyn Bolt deyiləm"

Noyabr ayındakı prezident seçkilərini yüngül atletika yarışlarına bənzədən ABŞ prezidenti Barak Obama seçicilərindən dəstək istəyib.

Seçiciləri qarşısında çıxış edərkən bu seçki mübarizəsini qaçış yarışlarına bənzədən Obama, “Mən Hüseyn Bolt deyiləm ki, bu məsafəni təkbaşına qaçaraq qələbə qazanam. Bu yarışda mənim qələbəm sizin dəstəyinizdən asılıdır”, — deyə onlara müraciət edib.

## UEFA Kipr klubunu Avropa Liqasından kənarlaşdırdı

UEFA İntizam Komitəsi Kiprin “Anortosis” klubunu cəzalandırıb.

Buna Avropa Liqasının III təsnifat mərhələsinin cavab görüşü çərçivəsində keçirilmiş “Anortosis” (Kipr) — “Dila” (Gürcüstan) matçında yerli azarkeşlərin meydançaya daxil olaraq oyunu yarımçıq saxlamaları səbəb olub.

Oyun 3:0 hesabı ilə qonaqların xeyrinə olarkən meydan sahiblərinin azarkeşləri stadionda qarışıqlıq yaratmışdılar. Həmin oyunda baş verənləri araşdıran UEFA “Anortosis” klubunu Avropa Liqasının “play-off” mərhələsindən kənarlaşdırıb. Üstəlik komanda 50 min avro məbləğində cəzalandırılıb.

Bununla yanaşı, “Anortosis” klubu növbəti illərdə Avrokuboklarda keçirəcəyi 3 matçı da azarkeşsiz oynamalı olacaq. Avropa Liqasının “play-off” mərhələsində oynamaq hüququ isə Gürcüstanın “Dila” klubuna verilib. Beləliklə, “play-off” mərhələsində “Dila” Portuqaliyanın “Maritimo” klubu ilə qarşılaşacaq.

Qeyd edək ki, bu mərhələnin ilk oyunları avqustun 23-də, cavab qarşılaşması isə bir həftə sonra — ayın 30-da keçiriləcək.

Xalq artisti Mənsum İbrahimov ailəsi ilə birlikdə əməkdar artist, tarzən Elçin Həşimova atası

**LƏZGİ kişinin**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Respublika Ali Məhkəməsinin hakimi Əsəd Mirzəliyev əməkdar artist, tarzən Elçin Həşimova atası

**LƏZGİ kişinin**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

**Qəzet 1992-ci il noyabrın 17-dən çıxır.**

**Baş redaktor:** Rəşad Məcid
**Redaktor:** Yaşar □liyev
**Baş redaktor müavinləri:** Yusif Rzayev, Seyfəddin Hüseynli
**Redaktor müavinləri:** Aydın Bağırov, Mirhacib Məcid, İsgəndər Həsənov

Qəzet bazar və bazar ertəsindən başqa hər gün çıxır
**Ünvan:** AZ1033, Bakı, Ş.Mustafayev küçəsi-27/121
Telefon: 566-67-98, 566-93-40
Faks: 566-25-20
**İnternet ünvanı: www.525.az**
**E-mail: qezet525@mail.ru**
Qəzet “Azərbaycan” nəşriyyatının mətbəəsində çap olunub.
Təsisçi: “525” şirkəti
İndeks: 0046, tiraj: 2250, sifariş:2768
“TURAN”, “TREND”, AzərTAc, “AssA-İradə”, APA v□ “OLAYLAR”ın informasiyalarından istifadə olunub.
Dərc olunan reklamların mətninə görə redaksiya məsuliyyət daşımır.
® işarəsi altında dərc olunan materiallar reklam xarakterlidir.